

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

10 iyun 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 21 (3534)


# AZƏRBAYCAN BEYNƏLXALQ NƏQLİYYAT QOVŞAĞINA ÇEVRİLİR



Son illərdə ölkədə nəqliyyat sisteminin yenidən qurulması dövlətin məqsədyönlü siyasətinin tərkib hissəsi kimi həm daxili nəqliyyat infrastrukturunun inkişafına töhfə verir, həm də Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirir.

Azərbaycan Prezidenti İlham Əliyev mayın 30-da Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən də nəqliyyat sahəsinin həmişə gündəlikdə olduğunu vurğulayıb. İkinci Qarabağ savaşından sonra bunun önəminin daha da artdığını bildirən dövlətimizin başçısı əvvəlki illərdə birgə həyata keçirilən layihələrlə yanaşı, yeni layihələrin də artıq masa üzərində olduğunu qeyd edib.

Türkiyə ilə birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunun inşa edilməsi Şərq-Qərb dəhlizinin önəmli hissəsi kimi tarixdə öz yerini alıb. İkinci Qarabağ müharibəsindən sonra isə iki ölkə artıq yeni bir dəhliz - Zəngəzur dəhlizi üzərində çalışır.

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, 30 illik işğala və erməni vandalizminə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması böyük əhəmiyyətə malikdir. İlk vaxtlar Ermənistan rəhbərliyi Prezident İlham Əliyevin regiona yeni inkişaf modeli gətirən layihələrinə qarşı çıxsa da, yeni inkişaf və əməkdaşlıq əlaqələrinin özlərinin də xeyrinə olduğunu anlamağa başlayıb.

Dövlətimizin başçısı Türkiyənin nəqliyyat və infrastruktur nazirinin diqqətinə çatdırıb ki, Ermənistan tərəfinin artıq dəhlizin açılmaz olması ilə bağlı məsələləri düzgün təhlil etdiyini göstərən məlumatlar gəlir: "Azərbaycan, Rusiya, Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup çərçivəsində bu məsələ müzakirə edilir və yaxşı nəticələr də var. Biz artıq azad edilmiş torpaqlarda Horadizdən Ermənistan sərhədinə qədər dəmir yolunun çəkilişinə start verdik. Əminəm ki, yaxın iki il, bəlkə iki il yarım ərzində o dəmir yolu tam istismara veriləcəkdir.

Naxçıvan dəmir yolunun böyük hissəsi fəaliyyətdədir və çatışmayan hissə də inşa ediləcək, bütün təlimatlar verilib. Ermənistan ərazisində Zəngəzur dəhlizinin önəmli hissəsi inşa edilməlidir. Beləliklə, yeni bir dəhliz açılacaq və Türkiyə-Azərbaycan arasında bu bağlantı daha da möhkəm olacaqdır".

Azərbaycanın regionda funksionallığını və əhəmiyyətini artıran həm də odur ki, ölkəmiz yalnız Şərqlə Qərb arasında körpü rolunda çıxış etmir, eyni zamanda, Şimal və Cənubu da birləşdirən mühüm dəhlizdir. Prezident İlham Əliyev bu dəhlizin - nəqliyyat infrastrukturunun formalaşması üçün ciddi siyasi iradə nümayiş etdirir. Nəticədə, istər daxili, istərsə də xarici nəqliyyat infrastrukturu çoxşaxəli vasitəyə çevrilə bilib.

# Enerji təminatı daha da gücləndirilir

Prezident İlham Əliyev Bakının Binəqədi rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan 110/35/6 kilovoltluq "Binəqədi" yarımstansiyasının açılışında iştirak edib.

Dövlətimizin başçısına məlumat verilib ki, 1952-ci ildə inşa edilən "Binəqədi" yarımstansiyası istismar müddətini iki dəfə keçmişdi. İndi bu yarımstansiya müasir avtomatika sistemləri ilə təchiz edilərək tam yenidən qurulub.

Qeyd edək ki, yarımstansiyanın yenidən qurulması həm də ona görə əhəmiyyətlidir ki, paytaxtın Binəqədi, Nərimanov, Nəsimi rayonlarının dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasında mühüm rol oynayır.

Diqqətə çatdırılıb ki, Abşeron Regional Elektrik Şəbəkəsinin bu ərazidə yerləşən inzibati binası da yenidən qurulub. Şəbəkənin köhnə inzibati binası genişləndirilərək əsaslı təmir olunub, heyətin fasiləsiz iş rejimində çalışması üçün zəruri şərait yaradılıb. Ərazidə transformatorların təmir sahəsi qurulub, xüsusi layihə əsasında abadlıq işləri görülüb, geniş yaşıllıq sahələri salınıb.

Prezident İlham Əliyev "Binəqədi" yarımstansiyasını işə salıb.

Dövlətimizin başçısına işğaldan azad edilən Suqovuşan qəsəbəsində yenidən qurulması tam başa çatan, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarında görülən işlər barədə məlumat verilib.

# "Xaşxaş-2021" şərti adı altında tədbirlər keçirilib

Baş Narkotiklərlə Mübarizə İdarəsi və Salyan RPŞ-nin əməkdaşları Salyan şəhər sakini İ.Əliyevə məxsus həyətyanı sahədən 24 ədəd, Xaçmaz RPŞ-nin əməkdaşları Turist qəsəbə sakini R.Əlimuradovun qəsəbə ərazisində yetişdirdiyi 142 ədəd, Neftçala RPŞ-nin əməkdaşları Aşağı Qaramanlı kənd sakini, əvvəllər məhkum olunmuş M.Fərəcova məxsus həyətyanı sahədən 65 ədəd, Sabirabad RPŞ-nin əməkdaşları şəhər sakini Ə.Əliyevə məxsus həyətyanı sahədən 47 ədəd, Hacıqabul RPŞ-nin əməkdaşları şəhər sakini Ə.Əzizova məxsus həyətyanı sahədən 22 ədəd, Sabunçu RPİ 14-cü PB-nin əməkdaşları Maştağa qəsəbə sakini, əvvəllər məhkum olunmuş A.Bağırova məxsus həyətyanı sahədən 162 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edərək götürmüşlər.

Balakən RPŞ-nin əməkdaşları tərəfindən Mahamalar kəndi ərazisində 4 ton çəkidə 8500 ədəd, Sabirabad RPŞ-nin əməkdaşları tərəfindən Məmişlər kəndi ərazisində 38 ədəd, Samux RPŞ-nin əməkdaşları tərəfindən Alabaşlı qəsəbəsi ərazisində 2297 ədəd, Ağdaş RPŞ-nin əməkdaşları tərəfindən Qarasuqumluq kəndi ərazisində 307 kiloqram çəkidə 520 ədəd, Cüvə kəndi ərazisində 222 kiloqram çəkidə 415 ədəd, Ağdam RPŞ-nin əməkdaşları tərəfindən Şelli kəndi ərazisində 142 ədəd, Xaçındərbənd kəndi ərazisində 1,2 ton çəkidə 1500 ədəd, Qubadlı RPŞ-nin əməkdaşları tərəfindən Bəxtiyarlı kəndi ərazisində 2,2 ton çəkidə 4007 ədəd, Qəbələ RPŞ-nin əməkdaşları tərəfindən Bayramkoxa kəndi ərazisində çəkisi 4 tona yaxın olan 7225 ədəd, Balakən RPŞ-nin əməkdaşları tərəfindən Mahamalar kəndi ərazisində çəkisi 2,9 tona yaxın olan 4800 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

# Polisin fəaliyyəti təqdir olunur

Bakıda keçirilən "Formula 1 Azərbaycan Qran Prisi" iyunun 6-da başa çatdı. Gözlənildiyi kimi, bu mötəbər tədbir də yüksək təhlükəsizlik şəraitində, hər hansı insident qeydə alınmadan baş tutdu.

Yarış keçirilən ərəfədə nəqliyyatın fasiləsiz hərəkətinin təmin edilməsi məqsədi ilə gücləndirilmiş iş rejimində xidmət aparan yol polisinin fəaliyyəti sürücü və piyadalar tərəfindən yüksək qiymətləndirildi. Bunu polis əməkdaşlarının xidməti fəaliyyətini əks etdirən foto və videoları müxtəlif sosial şəbəkələrdə paylaşaraq asayiş keşikçilərinə mənəvi dəstəklərini nümayiş etdirən sosial şəbəkə istifadəçiləri də açıq nümayiş etdirdi.

Bakı şəhər BPİ DYPİ-dən "Polis"in sorğusuna cavab olaraq bildirilib ki, yol polisi əməkdaşları ötən illərdə keçirilən beynəlxalq tədbirlər zamanı böyük təcrübə qazanıb və bu yarışlar ərəfəsində də vəzifələrini layiqincə yerinə yetirməyə çalışıblar. Qeyd edək ki, yarışın keçirildiyi istiqamətdə hərəkət edən avtobus və həmin ərazilərdə yaşayan sakinlərə məxsus xüsusi buraxılış verilmiş avtomobillərin hərəkəti üçün bütün lazımi şərait yaradılmışdı. Bu da nəticə etibarı ilə sıxlığın və tıxacların olmasına imkan vermədi. Yalnız bir gün – iyunun 31-də qadağalar tətbiq olunmağa başlayanda çətinlik yarandı ki, bu da sürücülərin yeni hərəkət istiqamətlərinə uyğunlaşmaları ilə bağlı oldu.




Qran Pri ərəfəsində polisin fəaliyyətini DİN yanında İctimai Şuranın üzvü Elməddin Muradlı da təqdir edib. O, bildirib ki, əvvəlki illərdə müşahidə olunan kiçik nöqsanlar da nəzərə çarpmadı. Bu da onu göstərirdi ki, yol polisi xidməti fəaliyyətini daha səmərəli təşkil edib. Yol ayrıcılarında, qovşaqlarda hərəkəti nizamlayan yol polislərinin xidməti çox yaxşı təşkil olunmuşdu: "Onlar hətta vətəndaşların müraciətlərinə belə operativ reaksiya verirdilər. Mən Bayıl ərazisində yaşayıram. Bir dəfə xidmətdə olan polis əməkdaşına yaxınlaşıb, qarşıdakı yolda sıxlıq yarandığını dedim, dərhal həmin əraziyə naryad göndərildi. Bu onu göstərir ki, yeri gələndə yolda hərəkətin nizamlanmasında hərəkət iştirakçıları da səbrlə, dözümlə yol polisinə kömək edəndə, bundan bütövlükdə cəmiyyət qazanır".

Həmişə sıxlıq müşahidə olunan küçə və prospektlərdə yarış ərəfəsində fərqli vəziyyətin yarandığını deyən ekspert Ərşad Hüseynov da svetoforlar olan yol ayrıcılarında belə hərəkətin nizamlanmasında polis əməkdaşlarının dayanmasının buna təsir etdiyini vurğulayıb. "Müşahidələrim onu göstərdi ki, Dövlət Yol Polisi İdarəsi fəaliyyətini PPX haqqında təlimata uyğun olaraq həyata keçirmişdir. Polis əməkdaşlarının əziyyəti öz nəticəsini göstərdi. Ortaya çıxan hər hansı şikayətlər olubsa, əminəm ki, DYPİ rəhbərliyi nəticələri təhlil edib, növbəti tədbirlərdə bundan istifadə edəcək", - deyə Ə.Hüseynov bildirib.

# Özü, sözü Vətən olanlar...

**Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri dəmir yumruq kimi birləşərək 44 gün davam edən Vətən müharibəsində böyük fədakarlıq, vətənpərvərlik nümunəsi göstərdilər.**

**Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan gizir Səmədov Mayis Şadıbəy oğlu 1977-ci il iyulun 28-də Xaçmaz rayonunun Qadaş-Oba kəndində doğulub.**



Orta təhsilini Qadaş-Oba kənd orta məktəbində alan Mayis 1992-ci ildə həmin təhsil ocağının 9-cu sinfini bitirərək, Xaçmaz şəhərindəki 92 saylı texniki-peşə məktəbinə qəbul olub. 1995-ci ildə təhsilini başa vuraraq “elektrik qaynaqçısı” ixtisasına yiyələnib. Müddətli həqiqi hərbi xidmətini 1996-1999-cu illərdə Daxili Qoşunların o zaman dislokasiya yeri Füzuli rayonu-döyüş bölgəsi olmuş, hazırda Bakı şəhərində yerləşən “N” saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki peşə üzrə çalışıb. 2004-cü ilin fevral ayından etibarən Mayis Daxili Qoşunların Quba rayonundakı “N” saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub, təminat taqımında anbar rəisi vəzifəsinə təyin edilib.

Xidmət etdiyi dövrdə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (hazırda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi) Göygöl rayonu ərazisində təşkil etdiyi istehkamçı ixtisası üzrə kursu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib. Bundan əlavə, Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) təşkil olunan 6 aylıq “Gizir hazırlığı kursu”nu bitirib. “Gizir” hərbi rütbəsində Qubadakı “N” saylı hərbi hissədə bir müddət anbar rəisi kimi xidmət edən M.Səmədov 2011-ci ilin sentyabr ayından xüsusi təyinatlı dəstədə atıcı-radiotelefonçu vəzifəsini yerinə yetirib. 2012-ci ilin sentyabr ayından etibarən qoşunların Sumqayıtdakı “N” saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müxtəlif vəzifələrdə xidmətini davam etdirən silahdaşımız 2019-cu ilin mart ayından istehkamçı yarımqrupunda baş istehkamçı-yarımqrup komandiri vəzifəsinə irəli çəkilib. Bir komandir kimi bilik və bacarığı, qayğıkeşliyi sayəsində böyük rəislərin etimadını, həmçinin, tabeliyində olan şəxsi heyətin hörmətini qazanıb. Yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqləndiyinə görə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi” yubiley, 2-ci və 3-cü dərəcəli “Qüsursuz xidmətə görə” medalları ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb. Bununla yanaşı, cəsur silahdaşımız 2017-ci ildə yüksək döyüş hazırlığı və əzmkarlığı sayəsində qazandığı “Zoğalı beret”i də qürur hissi ilə daşıyıb.

Gizir M.Səmədov istehkamçı yarımqrupunun komandiri kimi tabeliyində olan şəxsi heyətlə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirib. Daxili Qoşunların Baş İdarəsinin Qərargahında mühəndis xidmətinin rəisi, polkovnik-leytenant Baba Əliyev cəsur silahdaşlarımızı belə xatırlayır: “Daxili Qoşunların istehkamçı yarımqruplarının şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqları hər zaman yüksək səviyyədə yerinə yetirib. Hələ Vətən müharibəsindən öncə istehkamçılarımız istər respublikamızın evsahibliyi etdiyi müxtəlif idman yarışları, istərsə də ölkəmizdə keçirilən digər mühüm dövlət tədbirləri zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasında xüsusilə fərqləniblər. Qoşunların Vətən müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş 5 cəsur istehkamçısı - gizir Səmədov Mayis Şadıbəy oğlu, baş çavuşlar Nadirov Elçin Nadir oğlu, Vəlizadə Anar Afət oğlu, çavuşlar Fətəliyev Emil Mayis oğlu və Orucov Afər Yafət oğlunun, eləcə də vəzifə borcunu yerinə yetirərkən yaralanmış 16 nəfər qazi istehkamçımızın hər birinin fəaliyyətini məhz bu baxımdan müsbət qiymətləndirmək olar. Vətənpərvər istehkamçılarımız hər zaman olduğu kimi, ön cəbhədə də öz vəzifə borclarını məsuliyyət və şərəf hissi ilə yerinə yetirərək, gənclərə nümunə olacaq əsl qəhrəmanlıq göstərdilər”.

“N” saylı hərbi hissədə “Əqrəb” şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, “Qarabağ” ordeni və “Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edilmiş mayor Ələsgər Muxtarov vaxtilə birgə xidmət etdiyi yarımqrup komandirinin cəsurluğundan qürur hissi ilə danışır:

“5 oktyabr 2020-ci il tarixdə Cəbrayıl-Füzuli rayonları istiqamətində gedən döyüş Mayisin son döyüşü oldu. Yeddi nəfər silahdaşı ilə birgə ön mövqedəki əsgərlərimizə lazımi təminat çatdırmaq üçün gedərkən yolda pusquda dayanan mənfur düşmənin mühasirəsinə düşən igid hərbi qulluqçumuz özünü itirmir və qəflətən baş vermiş döyüşdə onlarla erməni yaraqlısını məhv edir. Təəssüflər olsun ki, bu qeyri-bərabər döyüşdə dəstəmizin cəsur hərbi qulluqçuları gizir Səmədov Mayis Şadıbəy oğlu və gizir Həsənov Faiq Hüseyn oğlu Müdafiə Nazirliyinin 6 nəfər xüsusi təyinatlısı ilə birgə əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəldilər”.

Gizir M.Səmədov 2020-ci il oktyabrın 6-da Xaçmaz rayonunun Qadaş-Oba kənd qəbiristanlığında dəfn olunub. Məleykə və Süleyman adlı iki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 22 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir Səmədov Mayis Şadıbəy oğlu (ölümündən sonra) “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# DİN yanında İctimai Şuraya seçkilər keçirilib





**Əvvəlcədən verilmiş elana uyğun olaraq iyunun 3-də Daxili İşlər Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib.**

Seçkinin qanunvericiliyin tələblərinə uyğun baş tutması üçün bütün zəruri tədbirlər görülüb. Seçkidən öncə əlçatanlığın və şəffaflığın təmini məqsədilə qeydə alınmış namizədlərin və seçicilərin siyahıları DİN-in rəsmi saytında və bütün sosial şəbəkələrdəki rəsmi səhifələrində əvvəlcədən yerləşdirilib. Seçki günü namizədlərdən yalnız 2 nəfər yetərli səs toplayaraq seçiliblər.

Digər namizədlərin seçilməsi üçün iyunun 7-də təkrar seçkinin keçirilməsinə qərar verilib.

Həmin tarixdə keçirilən 2-ci (təkrar) tur da yekunlaşıb. Vətəndaş cəmiyyəti institutlarından şuraya üzv olmaq üçün 40 nəfərin namizədliyi təsdiq edilib. Operativ Qərargah tərəfindən müəyyən edilmiş məhdudiyyət və tələblər nəzərə alınaraq keçirilən seçkidə seçici kimi iştirak üçün vətəndaş cəmiyyəti institutlarından qeydə alınmış 249 təmsilçidən 222-si iştirak edib.

Daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyevin də iştirak etdiyi tədbirin yekunu olaraq, DİN yanında İctimai Şuranın 15 nəfərdən ibarət tərkibi seçilib.

Qeyd edək ki, Daxili İşlər Nazirliyi yanında İctimai Şura daxili işlər orqanları əməkdaşlarının cinayətkarlığa qarşı mübarizədə profilaktik fəaliyyətinin, ictimaiyyətlə, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunmasında könüllü iştirak edən şəxslərlə əlaqələrinin səmərəli təşkili məqsədilə yaradılır.

# Sayğı ilə yazırlar...

## *Bu məktublar polis haqqında ictimai rəyin bariz nümunəsidir*



**Sabitliyin hökm sürdüyü ölkəmizdə polisin fəaliyyətini soydaşlarımızla yanaşı, ölkəmizə gələn turistlər, burada çalışan əcnəbilər, başqa dövlətlərdə yaşayan həmvətənlərimiz də təqdir edirlər.**

Türkiyədən yazan Əmir Hacılının sözlərində polisin fədakar xidmətindən məmnunluq öz əksini tapıb. O, sosial şəbəkə üzərindən fikirlərini belə ifadə edir: “Sizə İstanbuldan yazıram. Azərbaycan Polisinin xidməti fəaliyyətini sosial mediadan izləyirəm. İstər Vətən müharibəsi dönəmində, istərsə də pandemiya ərəfəsində Azərbaycan Polisi əzmkarlıq, şücaət göstərərək fədakarlıq nümayiş etdirdi. Polis hər yerdə vətəndaşın yanındadır. Azərbaycan dünyada təhlükəsiz və yaşamaq üçün ən əlverişli ölkələr sırasındadır. Biz uzaqda olsaq da qürurlanırıq”.

Digər sosial şəbəkə izləyicimiz Erhan Can üzləşdiyi problemlə əlaqədar etdiyi müraciətə operativ reaksiya verilərək qısa zaman kəsiyində həll olunmasında göstərdikləri köməkliyə görə Gəncə ŞBPİ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Bakı şəhər sakini Asif Nəbiyev Vətən müharibəsi iştirakçılarına, şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğıya, eləcə də Vətən müharibəsi iştirakçısı olan oğlunun daxili işlər orqanlarında xidmətə qəbul olunmasına görə DİN rəhbərliyinə təşəkkürünü ifadə edir.

Paytaxt sakini, 2-ci qrup Qarabağ əlili Bəylər Teymurov DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda avtomobilini texniki baxışdan keçirmək üçün Baş Dövlət Yol Polisi İdarəsinin Maştağa qəsəbəsində yerləşən Müayinə Mərkəzinə getdiyi zaman orada ona göstərilən xoş rəftardan razılığını yazır və Azərbaycan Polisinə çətin, eyni zamanda, şərəfli xidmətinin fəaliyyətində uğurlar diləyir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Silah-sursat aşkar edilib



**İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədi ilə profilaktiki tədbirlər davam etdirilir.**

***Xocavənd Rayon Polis Şöbəsinin*** əməkdaşları tərəfindən keçirilmiş növbəti tədbirlər zamanı düşmənin atıb qaçdığı “İqla” zenit-raket kompleksi, 15 ədəd raket və 97 ədəd minaatan mərmisi aşkar edilərək götürülüb.

Daha bir tədbir ***Füzuli rayonunda həyata keçirilib. Rayon Polis Şöbəsinin*** əməkdaşları işğaldan azad edilmiş ərazilərdə 11 avtomat, 5 qumbaraatan, 1 pulemyot, 1 minaatan kompleksi, 1 “Foqot” markalı tank əleyhinə raket, 11 əl qumbarası, 23 avtomat darağı, 6804 ədəd müxtəlif çaplı güllə və digər döyüş sursatları taparaq aidiyyəti üzrə təhvil verib.

***Zəngilan Rayon Polis Şöbəsinin*** əməkdaşları da rayonun Ağakişilər kəndi ərazisində xidməti borcunu yerinə yetirərkən orada tank və piyada əleyhinə 7 ədəd mina və partladıcılar tapıblar. Onların zərərsizləşdirilməsi üçün dərhal Minatəmizləmə Agentliyinin əməkdaşlarına məlumat verilib.



# Ölümün gözünə dik baxanlar



Hərb tariximizin şərəfli səhifəsi olan və bizi qələbə zirvəsinə ucaldan 44 günlük Vətən müharibəsində igid oğullarımız erməni işğalçılarını məğlub etdilər, torpaqlarımızın düşmən tapdağında qalmasına son qoydular, uzun illər həsrətini çəkdiyimiz yurdlarımızda üçrəngli bayrağımızı qaldırdılar.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçularının göstərdikləri igidlik nümunələri heç vaxt unudulmayacaq. Onlardan biri də haqq savaşımızda ağır yaralanaraq əlil olan və hərbi xidmətdən tərxis edilən çavuş Mədəni Polad Əmir oğludur.

O, 1989-cu il mayın 30-da Şəki şəhərində doğulub.

Polad Şəkidəki Rəşid Əfəndiyev adına 10 saylı orta məktəbdə təhsil alıb. 9 illik təhsildən sonra avtomobil təmiri üzrə texnik peşəsinə yiyələnib və bu sahədə çalışıb. 2007-2009-cu illərdə Polad Müdafiə Nazirliyinin Naxçıvan şəhərindəki “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Kəşfiyyat bölməsində snayper olub, “çavuş” hərbi rütbəsinədək yüksəlib.

2011-ci ilin noyabr ayında Polad Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Bakı şəhərindəki “N” saylı hərbi hissədə əvvəlcə xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı, döyüş təminatı yarımqrupunda heyət nəfəri-atıcı vəzifələrinə, sonra isə hərbi hissənin xüsusi təyinatlı dəstəsinə keçirilərək, xüsusi həmlə qrupunun yarımqrupunda atıcı-snayper və snayper vəzifəsinə təyin edilib.

Vətən müharibəsinədək olan hərbi xidməti dövründə ona göstərilən etimadı doğruldub, 3-cü dərəcəli “Qüsursuz xidmətə görə” medalı ilə mükafatlandırılıb.

2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayanda çavuş P.Mədəninin xidmət etdiyi xüsusi təyinatlı dəstə döyüşən oğulların ilk cərgəsində də olub. Poladın döyüş yolu Kəlbəcər rayonu istiqamətində Murovdağ yüksəkliyindən, Cəbrayıldan, Xocavənddən, Qubadlı və Füzuli rayonlarından keçib. Xüsusi təyinatlı olaraq hazırlığı müharibədə köməyinə çatıb. Deyir ki, xüsusi təyinatlılar döyüş tapşırıqlarının yerinə yetirilməsində, eləcə də düşmənlə üzbəüz döyüşlərdə sözlə ifadə olunmayacaq qədər fədakarlığa imza atıblar. Düşmənin xüsusi təyinatlılarımızı görəndə necə mövqelərini atıb qaçdıqlarını danışdıqca sanki gözlərində ildırım parlayır: “Döyüşlərdə bir neçə dəfə pusquya düşmüşük, itkilərimiz olub, ancaq həmin vəziyyətdə də düşmənin layiqli cavabını vermişik. Füzuli rayonuna aid ərazidə qruplarla irəliləyərkən düşmən divizionunun yerini müəyyənləşdirdik. Burada 4 top və digər artilleriya vasitələri, xeyli sursat, 70 nəfərə yaxın şəxsi heyət vardı. Xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Füzuli İmrəliyevin göstərişi ilə divizionun yerləşdiyi sahəni mühasirəyə alaraq atəşə tutduq. Düşməni məhv edib, çoxlu sayda silah-sursat, texnika qənimət götürdük. Döyüşlərdə itkilərimiz də oldu.



Baş leytenant Kamran Kazımov, baş çavuşlar Vüqar Cəfərov və Əsgər Əhmədov şəhidlik zirvəsinə ucaldılar. Şükürlər olsun ki, onların qisası alındı, qanları yerdə qalmadı”.

Xüsusi təyinatlı olduğu üçün qürur duyur: “Hər bir insan kimi, döyüşçü də yaşamaq, öz arzularına qovuşmaq istəyir, özünəməxsus xəyalları olur, ailəsini düşünür. Ancaq müharibə gerçəkliyində dərk edirsən ki, hissə qapılmaq olmaz, qarşıda düşmən var, onun hədəfindəsən, müqəddəs torpağın təcavüzkardan təmizlənməlisən, geriyə qalib kimi dönməlisən. Müharibə itkisiz olmur, ölüm bir nəfəs qədər bizə yaxın idi, lakin ölüm qorxusu səni üstələməməlidir, döyüş ruhu varsa, bu, insana mənəvi güc verir. Vətən yolunda şəhid və qazi olmaq isə insan üçün şərəfli taledir”,-deyir.

2020-ci ilin oktyabr ayının 15-də Füzuli rayonu ərazisində döyüş zamanı düşmən Poladgilin yerləşdiyi mövqeni müxtəlif növ artilleriyadan, zirehli texnikalardan şiddətli atəşə tutub. Yaxınlığına düşən minaatan mərmisi qollarını yaralasa da silahı yerə qoymayıb. Düşmənin atdığı növbəti mərmi sağ ayağının dizdən aşağı nahiyəsini qoparıb, bud nahiyəsi ağır dərəcəli zədələnib. Yaralandığı yer atəş altında olduğundan, onun oradan çıxarılması bir neçə saat çəkib. Poladı çıxartmağa can atan iki hərbi qulluqçudan biri şəhid olub, digəri isə yaralanıb. Nəhayət, yaralını ərazidən çıxarmaq mümkün olub. Çətinliklə Füzuli rayonundakı xəstəxanaya çatdırılıb, burada “sağ budunun yuxarı üçdə birinin travmatik amputasiyası” diaqnozu qoyularaq cərrahi əməliyyat aparılıb. Xəstəxanadan Daxili Qoşunların Hospitalına göndərilib və uzunmüddətli müalicə kursu keçib. Qaziyə 2-ci qrup əlillik dərəcəsi verilib.

Azərbaycan Respublikası Prezidentinin 18, 25 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Mədəni Polad Əmir oğlu “Cəsur döyüşçü”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Gənclər maarifləndirilir

**Bugünlərdə Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində polis əməkdaşlarının iştirakı ilə növbəti onlayn maarifləndirici tədbir keçirilib.**



"Gənclər arasında milli-dini dözümlülük, humanizm dəyərlərinin təbliği, anti-sosial davranışların qarşısının alınması” mövzusunda təşkil olunmuş tədbirdə ekspert qismində **Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova** çıxış edib. Ölkəmizin dünyaya tolerantlıq örnəyi kimi tanındığını bildirən həmkarımız tədbirdə fərqli dinlərə sitayiş edən xalqların və millətlərin tarixən dostluq, əmin-amanlıq şəraitində yaşamasından, xalqımıza xas humanizm dəyərlərindən bəhs edib. Eləcə də son illərdə dünyada müşahidə olunan dini radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin roluna diqqət çəkib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

*R.Mehtiyev*

# Metronun təhlükəsizliyi diqqət mərkəzindədir

**Pandemiya ilə əlaqədar fəaliyyəti müvəqqəti dayandırılan Bakı metrosu yenidən sərnişindaşıma xidmətini bərpa edib. İndi metrodan istifadə edən sərnişinlər həm sağlamlıqlarının, həm də təhlükəsizliklərinin təmin edilməsi məqsədilə tətbiq edilən yeniliklərlə qarşılaşırlar.**



Məlum olduğu kimi, Nazirlər Kabineti yanında Operativ Qərargah ölkə ərazisində tətbiq etdiyi xüsusi karantin rejiminin mövcud sanitar-epidemioloji vəziyyətinə uyğun qaydalar müəyyən edib. Şəhər sakinlərinin ən çox istifadə etdikləri metroda da bu qaydalara riayət edilməsinə nəzarət, o cümlədən təhlükəsizlik tədbirlərini həyata keçirmək metronun mühafizəsini həyata keçirən polis əməkdaşlarının üzərinə düşür.



Metroda təkmilləşdirilən təhlükəsizlik tədbirləri, heç şübhəsiz ki, sərnişinlərdə mənzil başına rahat və güvənli şəkildə çatacaqlarına əminlik hissi yaradır. Stansiyaya daxil olan sərnişinlərin tibbi maskalardan istifadə etməsi, əl çantalarının yoxlanılması ilkin təhlükəsizlik tədbirləri kimi diqqət çəkir. Metro girişlərinə quraşdırılan müasir avadanlıqlar sərnişinlərin çanta və bağlamalarının daha etibarlı, eyni zamanda operativ yoxlanılmasını təmin edir. Bu da günün pik saatlarında metro girişlərində sərnişin sıxlığının aradan qaldırılması, eləcə də karantinin tələblərinə uyğun olaraq, sərnişinlər arasında sosial məsafənin qorunması imkanlarını artırır.

*Rəşad Mehtiyev,*
*fotolar Məhərrəm Məcidovundur*

# Azərbaycan Polisi yüksək peşəkarlıq nümayiş etdirir

## Turnir ərəfəsində ciddi qanun pozuntusu qeydə alınmayıb



İyunun 4-dən 6-dək Bakıda keçirilən növbəti “Formula-1 Azərbaycan Qran Pri” yarışı zamanı ictimai qaydanın qorunması və təhlükəsizliyin təmin olunması gücləndirilmiş iş rejimində çalışan daxili işlər orqanlarına həvalə edilmişdi. Ötən illər ərzində ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdə kifayət qədər təcrübə toplayan polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları onlara həvalə olunmuş tapşırıqların öhdəsindən uğurla gəldi. Belə ki, əməliyyat şəraiti fasiləsiz olaraq nəzarətdə saxlanıldı, hər hansı bir kobud intizam pozuntusuna yol verilmədi.

Yarış həftəsonuna təsadüf etdiyindən və şəhərin mərkəzi hissəsində keçirildiyindən asayiş keşikçiləri diqqəti əhalinin sıx toplaşdığı, gəzintiyə çıxdığı, istirahət etdiyi yerlərdə ictimai asayişin və təhlükəsizliyin təmininə yönəltdilər.

“Polis”in suallarını cavablandıran **Səbail RPİ rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovnik-leytenantı Emil Cavadov** tədbirlə əlaqədar qarnizonun digər rayonlarının şəxsi heyətinin xidmətə cəlb olunduğunu bildirdi. DİN, Bakı şəhər BPİ əməkdaşlarının həm kömək, həm də nəzarət funksiyasını həyata keçirdiklərini deyən həmsöhbətimiz vətəndaşların təhlükəsiz şəraitdə istirahətlərinin təmin edildiyini xüsusi vurğuladı.

Turnir ərəfəsində gündəlik funksional vəzifələrini yerinə yetirən Səbail RPİ-nin Post-Patrul Xidməti Bölüyünün polis nəfərləri, baş serjantlar Qafar Quliyev və Sənan Qaraxanov da fikirlərini bizimlə bölüşdülər. Onlar hər hansı bir xoşagəlməz halla rastlaşdıqları zaman aidiyyəti üzrə məruzə edərək qanunvericiliyin tələblərinə uyğun tədbirlər gördüklərini dedilər. Yarışın davam etdiyi günlərdə isə ikiqat məsuliyyətli olduqlarını, yorulmadan asayişin, vətəndaşların təhlükəsizliyinin keşiyində dayandıqlarını və heç bir neqativ halla qarşılaşmadıqlarını bildirdilər.

Bir sözlə, həm mötəbər yarışların keçirildiyi günlərdə, həm də gündəlik xidməti fəaliyyət zamanı polis yüksək peşəkarlıq nümayiş etdirir.

# Oğru “isti izlər”lə yaxalandı

Nəsimi rayonunda oğurluq hadisəsinin üstü “isti izlər”lə açılıb. Daxil olmuş məlumat əsasında Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində rayon ərazisindəki gözəllik salonlarının birindən 600 manat, bankomat kartı və şəxsiyyət vəsiqəsi olan pulqabını oğurlamaqda şübhəli bilinən paytaxt sakini Nərgiz Xəlilova saxlanılıb.




**RPİ İstintaq Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Orxan Süleymanlının** sözlərinə görə, saxlanılan şəxs gözəllik salonunda olan digər müştəri Rufanə Qafarovanın çantasının nəzarətsiz qaldığını görüb. O, pulqabını götürüb və oradan uzaqlaşıb. Təqsirləndirilən şəxs saxlanılarkən müxtəlif bəhanələrlə törətdiyi əməldən boyun qaçırmaq istəsə də **müstəntiq, polis kapitanı Ağabala Cəfərovun** sualları qarşısında aciz qalıb. Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

N.Xəlilovanın paytaxtın digər rayonlarında da anoloji əməllər törətdiyi istisna edilmir.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Onlar bizə əmanətdir

**Bugünlərdə Saatlı Rayon İcra Hakimiyyətinin nümayəndələri və Rayon Polis Şöbəsinin əməkdaşları torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan Vətən müharibəsində şəhid olanların və sağlamlıqlarını itirən qazilərin ailələrini ziyarət edib, qayğıları ilə maraqlanıblar.**



Görüşlərdə dövlətimizin şəhid ailələrinə və döyüşlərdə sağlamlığını itirmiş şəxslərə göstərdiyi diqqət və qayğıdan danışılıb, Vətən müharibəsindəki qələbənin şəhidlərimizin, qazilərimizin və bu gün orduda xidmətini davam etdirən mərd oğullarımızın sayəsində əldə edildiyi vurğulanıb.

Göstərdikləri dəstəyə görə şəhid və qazi ailələri ölkə rəhbərliyinə və Azərbaycan Polisinə minnətdarlıqlarını bildiriblər.

*Nizam Həmidov,*
*polis baş leytenantı*

# Dövriyyədən 35 kiloqram narkotik vasitə çıxarılıb

**DİN Baş Narkotiklərlə Mübarizə İdarəsinin** əməkdaşlarının paytaxtın Nərimanov rayonunda həyata keçirdikləri əməliyyat nəticəsində narkotik vasitələrin satışı ilə məşğul olmaqda şübhəli bilinən Ramin Ağazadə saxlanılıb. Onun üzərindən və yaşadığı mənzildən 18 kiloqram 90 qram heroin, 740 qram tiryək, 152 qram qurudulmuş marixuana, 365 qram psixotrop maddə olan metamfetamin, 260 ədəd satışı qadağan olunan psixotrop tərkibli "Metadon" həbləri, 1 ədəd elektron tərəzi və 1 ədəd narkotik vasitələrin onlayn satışı zamanı pul köçürmələrində istifadə etdiyi plastik kart aşkar olunaraq götürülüb. R.Ağazadə ifadəsində şəxsiyyəti hələlik istintaqa məlum olmayan xarici ölkələrdən birinin vətəndaşının sifarişi ilə külli miqdarda yüksək təsiredici xassəyə malik narkotik vasitələri ayrı-ayrı şəxslərə çatdırmaq məqsədi ilə ölkə ərazisinə gətirdiyini bildirib. O, narkotik vasitələrin paytaxtda və bölgələrdə tanıdığı şəxslərə çatdırmaqla satışını təşkil etməli imiş.

Yasamal rayonunda həyata keçirilən növbəti əməliyyat nəticəsində isə paytaxt sakini Zaur Məmmədov narkotik vasitələrin satışında şübhəli bilindiyi üçün saxlanılıb. Onun üzərindən 97 qram heroin, 101 qram metamfetamin, narkotik maddələrin satışı zamanı istifadə etdiyi plastik kart, yaşadığı evdən isə əlavə, 6 kiloqram 190 qram heroin, 1 kiloqram 144 qram tiryək, 3 kiloqram 70 qram metamfetamin, 946 qram marixuana, 200 ədəd "Metadon" həbi və 2 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb. Z.Məmmədov ifadəsində sosial şəbəkələrdə narkotik vasitələrin onlayn yolla satışını həyata keçirdiyini etiraf edib.

Abşeron rayonunda həyata keçirilən digər bir əməliyyat nəticəsində narkotik vasitələrin satışında şübhəli bilinən Səbuhi Hüseynli saxlanılıb. Onun üzərinə və yaşadığı evə baxış zamanı ümumilikdə 2 kiloqram 361 qram psixotrop maddə olan metamfetamin və heroin, həmçinin, 1 ədəd elektron tərəzi aşkar edilib. S.Hüseynli ifadəsində narkotik vasitələrin satışı ilə məşğul olduğunu bildirib.

Baş İdarə əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə istiqamətində Nəsimi rayonunda keçirilən sonuncu əməliyyat zamanı isə əvvəllər də analoji cinayətlər törətdiyinə görə dəfələrlə məhkum olunmuş, Bərdə rayon sakini Gündüz Abışov saxlanılıb. Onun üzərinə və yaşadığı evə baxış zamanı ümumilikdə 2 kiloqram 52 qram heroin və metamfetamin, eləcə də, 2 ədəd elektron tərəzi aşkar olunub.

Sonuncu əməliyyatlar zamanı Baş İdarənin əməkdaşları tərəfindən ümumilikdə 35 kiloqramdan artıq narkotik maddə, o cümlədən, 460 ədəd psixotrop tərkibli həb aşkar olunaraq qanunsuz dövriyyədən çıxarılıb.

*Anar Qafarov,*
*polis kapitanı*




**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Şəmkir rayon sakini H.Qasımzadədən "AKS-74" markalı avtomat silahı və süngü bıçaq, habelə gizlətdiyi "AK" markalı avtomat silahı, 30 ədəd patron və patron darağı aşkar edilərək götürülmüşdür.

◆◆◆

**NBPİ əməkdaşlarının** keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 2-də Biləcəri dəmir yolu stansiyasının ərazisindən 66 ədəd rels yanlığı oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş R.Camalov saxlanılmışdır.

◆◆◆

**Sumqayıt ŞPİ 5-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 6-da "BTZ" bağlar sahəsində K.Quliyevaya zor tətbiq edib 182 manatını soyğunçuluq yolu ilə almaqda şübhəli bilinən şəhər sakini R.Abdullayev saxlanılmışdır. Araşdırma aparılır.

◆◆◆

**Xətai RPİ 35-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən R.Mirzəyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 18 qramdan artıq heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı evdən isə 5 qramdan artıq heroin, metamfetamin, tiryək və 6 kiloqramdan artıq marixuana götürülmüşdür.

◆◆◆

**Pirallahı RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş S.Əliyevdən nömrəsi silinmiş "Naqan" tipli tapança və 2 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş M.Məmmədov heroin satarkən tutulmuşdur. Şəxsi axtarış zamanı ondan 1 kiloqram 10 qram heroin götürülmüşdür.

◆◆◆

**Mingəçevir ŞPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində mayın 31-də Şəmkir rayon sakini A.Verdiyevin 130 manatını soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən Şəmkir rayon sakinləri A.Əsgərov, M.Sadıqov və əvvəllər məhkum olunmuş E.İsmayılov saxlanılmışlar.

2021-ci ilin II yarısı üçün "Polis"ə-
öz qəzetinizə abunə olmağa tələsin!

# "Vaşaq"lar döyüşə hazırdır

**Xüsusi təyinatlı dəstənin əsas vəzifəsi silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istər ictimai təhlükəsizliyin pozulması, istərsə də təbii fəlakətlər zamanı qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və "dəmir" iradə tələb edir.**



Daxili Qoşunların Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissəsinin "Vaşaq" xüsusi təyinatlı dəstəsi bu dəfə də ənənəsinə sadiq qalaraq, ötən ilin yekun yoxlamasını müvəffəqiyyətlə başa vurub, hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.

Dəstə komandirinin vəzifəsini müvəqqəti icra edən kapitan Orxan Daşdəmirov bildirdi ki, şəxsi heyətin döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji tərbiyəsi, düzgün dünyagörüşlərinin formalaşması da əsas məqamlardandır.

O, xüsusi təyinatlıların hazırlığını yüksək qiymətləndirərək, şəxsi heyətin döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazır olduğunu diqqətimizə çatdırdı: "Keçirilən məşğələlər zamanı onların hərbi bilik və bacarıqlarını artırmalarına xüsusi fikir verilir. Əsas diqqətimizi atəş və fiziki hazırlıq məşğələlərinə, həmçinin, səhra şəraitində taktiki hazırlıq üzrə praktiki fəaliyyətə yönəldirik. Hərbi topoqrafiya üzrə şəxsi heyətin biliklərinin artırılması da məşğələlər zamanı diqqət yetirilən vacib amillərdəndir. Hər bir xüsusi təyinatlının müxtəlif miqyaslı xəritələrdən və GPRS qurğusundan fərdi qaydada sərbəst istifadə edə bilməsinə xüsusi fikir verilir".

Onun sözlərinə görə, məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığı xüsusilə diqqətdə saxlanılır. Şəxsi heyətin real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir.

Kapitan O.Daşdəmirov, həmçinin, vurğuladı ki, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, ekstremal şəraitlərdə dayanıqlığın, fəal və qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi, eləcə də yüksək intizamın saxlanılması və sayıqlığın aşılanması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi xüsusilə diqqət mərkəzində saxlanılır.

"Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərin keyfiyyətinin artırılması məhz döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır", – deyən hərbi qulluqçumuz bu baxımdan bəzi məqamlara aydınlıq gətirdi: "Ümumilikdə götürdükdə, dəstə özü də bir hərbi kollektivdir. Dəstənin qarşısında qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi isə hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə dostluq və yoldaşlıq məfhumunun aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin qarşısında duran vacib vəzifələrdəndir".



Hərbçimiz şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan baş çavuşlar Anar Əliyevin, Cavid Qəhrəmanovun, Məhəmməd Mahmudovun, Fəxri Həbiblinin, çavuş Vüsal Cabbarovun adlarını çəkdi.

Vətən savaşında "Vaşaq"ların da öz dəsti-xətti var. Düşmənin atəş nöqtələrini sinəsi ilə susduran, ona ömür boyu bilməyəcəyi dərsi verən "vaşaq"larımız varsa, deməli, vətənimiz də, qələbəmiz də etibarlı əllərdədir...

*Nigar Ağayeva,*
*baş leytenant*

## İyun ayının 2-dən 8-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 253 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 78 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 268, o cümlədən borclu şəxs qismində axtarışda olan 164 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 12 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 156 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:30
Qiyməti 40 qəpik